ƏN BÖYÜK FUTBOL ULDUZLARI

# KRİŞTİANO RONALDONUN

QEYRİ-RƏSMİ HEKAYƏSİ

LYUK PATON



qanun nəşriyyatı

# CRISTIANO RONALDO

THE UNOFFICIAL STORY

WRITTEN BY
LUKE PATON



*“Ən böyük futbol ulduzları”* seriyası dünya futbolunun əfsanəvi və məşhur futbolçularının maraqlı həyat yolundan bəhs edir. Dünya üzrə ən istedadlı oyunçuları bir araya gətirən bu seriya onları futbol ulduzu zirvəsinə aparan parklarda, küçələrdə futbol oynamaqdan tutmuş ən böyük meydanlarda və ən nüfuzlu liqalarda azarkeşlərlə dolu tribunalar qarşısında çıxış etməyə qədər əhatə edən həyat yollarını təsvir edir. Bu kitab Kriştiano Ronaldonu əfsanəyə çevirən əzmkarlıq, ehtiras və futbol sevgisinin tərənnümüdür.

**LUKE PATON**
**Cristiano Ronaldo The unofficial story**
**LYUK PATON**
**Kriştiano Ronaldonun qeyri-rəsmi hekayəsi**
Bakı, Qanun Nəşriyyatı, 2025, 112 səh.

Janr: uşaq ədəbiyyatı, idman,
bioqrafiya, məşhur şəxsiyyətlər
Yaş qrupu: 7+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 23.01.2025

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| İngilis dilindən tərcümə etdi: | Gül Təkin |
| Korrektor: | Aytən Səadəti |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-586-61-9

© Qanun Nəşriyyatı, 2025
Copyright © 2024
Inside illustrations copyright © 2024
Cover illustrations copyright © 2024
Published under licence from Sweet Cherry Publishing Limited.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri
“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”
Azərbaycan Respublikasının Qanununa ziddir.

# MÜNDƏRİCAT


1. Dünya Kubokunda uğursuzluq.... 7
2. Küçə futbolu ................................13
3. Böyük liqalara doğru....................23
4. Bəxtəvər nömrə............................35
5. Dünyanın ən yaxşısı ....................47
6. 1 nömrəli xalq düşməni................61
7. "La Liqa"da parlamaq..................73
8. Ailə insanı ...................................83
9. Yeni dövr .....................................91
10. Ronaldonun qayıdışı ...................95
11. Davam edən irs ..........................103

# 1

# DÜNYA KUBOKUNDA UĞURSUZLUQ

Fakundo Tello final fitini çalanda Əl-Tumama stadionundakı azarkeşlər sevincdən coşdular. Dünya Çempionatının dörddə bir finalında Mərakeş Portuqaliyaya 1:0 hesabı ilə qalib gəlib. Onlar Dünya Kubokunun yarımfinalında oynayan ilk Afrika komandası olacaqlar! Mərakeş

azarkeşləri bu günü heç vaxt unutmayacaqdılar... Amma Kriştiano Ronaldo üçün ağır və ürəkağrıdan bir məğlubiyyət idi. Portuqaliyalı ulduz diz üstə çökdü, gözlərində yaşlar parıldamağa başladı. Üzünü hər iki əli ilə örtərək hisslərini gizlətməyə çalışırdı. Bu onun arzusunun sonu idi. Kriştiano, Mərakeş komandasının qol-qola girərək azarkeşləri ilə birlikdə sevinclərini paylaşmaq üçün meydançanın kənarına doğru qaçdığını görmürdü. O, qalib gələn oyunçuların meydanın ətrafında mahnı oxuyub rəqs edərkən, izdihamın daha da guruldayaraq coşduğunu eşitmirdi. Kriştiano, daha bu stadionda bundan artıq dayanmaq istəmirdi.



Portuqaliyalı komanda yoldaşlarının bir neçəsi rəqiblərinin əlini sıxaraq onları təbrik etdilər, amma Kriştiano bunu etmədi. O, heç kimlə danışmadan meydanı tərk etdi. Hətta meydançaya girən bir azarkeş belə ona mane ola bilmədi. Kriştiano göz yaşlarını gizlətməyə çalışaraq dəhlizdən keçib soyunma otağına getdi. İnsanlar onun şəkillərini çəkir, TV kameraları ona tuşlanırdı, amma o, başını aşağı salıb sakitcə uzaqlaşırdı. Dünyanın onu ağlayan yerdə görməyini istəmirdi. “Ronaldonun çox pis olduğu görünür” - deyə sabiq futbolçu Alli Makkoyst TV şərhində bildirib. “Amma həqiqət budur ki, bu axşam onun haqqında danışmırlar. Onun dövrü bitdi. Bu axşam hər şey Mərakeş haqqında olacaq”. Ancaq Kriş-



tiano yalnız Portuqaliya Dünya Kubokunun təsnifat mərhələsində məğlub olduğu üçün ağlamırdı. Bəli, bu da səbəblərdən biriydi.

Amma bu məğlubiyyət həm də daha çox şəxsi mahiyyət daşıyırdı. Bu, Kriştiano üçün Dünya Kubokunu qazanmanın artıq heç vaxt mümkün olmayacağı demək idi. Həmin gün – 2022-ci ilin 10 dekabrında – Kriştiano otuz yeddi yaşında idi. Portuqaliya növbəti dəfə Dünya Kubokunda oynayanda isə onun qırx bir yaşı olacaq. Əgər komanda Şimali Amerikada keçirilən bu turnirə çatarsa, Kriştiano artıq peşəkar futbolçu üçün çox yaşlanmış olacaq.

Dünya Kuboku onun heç vaxt əlinin çata bilmədiyi yeganə mükafat idi. O, Portuqaliya komandasında Avropa Çempionatını qazanmışdı.

O, "Mançester Yunayted" ilə Premyer Liqada çempion olmuşdu. O, "Real Madrid" ilə La Liqanı qazanmışdı. O, Çempionlar Liqasını beş dəfə qazanmışdı. Beş dəfə "Qızıl top" mükafatına layiq görülmüşdü. İki dəfə FIFA-nın İlin Oyunçusu seçilmişdi. Onun getdikcə artan mükafat kolleksiyasına həsr edilmiş bütöv bir muzey var! "Portuqaliya üçün Dünya Kubokunu qazanmaq karyeramın ən böyük və ən iddialı arzusu idi" – Kriştiano ertəsi gün dedi. "Bu



arzu uğrunda çox mübarizə apardım. Hər şeyimi verdim. Heç vaxt döyüşdən üz çevirmədim və bu arzudan vaz keçmədim. Təəssüf ki, dünən bu arzu sona çatdı”. Kriştiano bilirdi ki, artıq əldə etdiklərinə bir daha nail olmağı ondan heç kəs gözləyə bilməz. Uşaq vaxtı kasıb ailədə, çox kiçik bir evdə böyüyüb. Gənc Kriştianoya hətta yarıpeşəkar futbolçu olmaq belə əlçatmaz bir arzu kimi görünürdü. Ancaq ağır zəhməti və qətiyyəti sayəsində zirvələri fəth etdi.



# 2

# KÜÇƏ FUTBOLU

Kriştiano Ronaldo duş Santuş Aveyro 1985-ci il fevralın 5-də Portuqaliyanın Madeyra adasında yerləşən Funşal adlı şəhərində anadan olub. Onun anası, Mariya Dolores dos Santos Viveyros da Aveyro, aşpaz və xadimə idi. Atası, Xose Dinis Aveyro, bağban və yerli "Andorinha" futbol klubunda təchizat üzrə yarımştat